# Fermerlərin iştirakı ilə təlim keçirilib

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin (AXA) baytar mütəxəssisləri tərəfindən Qəbələ rayonunda heyvandarlıq sahəsində fəaliyyət göstərən bir qrup fermerə "İribuynuzlu heyvanlarda qan-parazitar xəstəliklərinin profilaktikası və mübarizə tədbirləri" mövzusunda təlim keçirilib. Təlim Aqrar Xidmətlər Agentliyinin Qəbələ Rayon Baytarlıq İdarəsinin rəisi Bəhman Abdurahmanov tərəfindən təsərrüfat şəraitində aparılıb.



"İribuynuzlu heyvanlarda qan-parazitar xəstəliklərinin profilaktikası və mübarizə tədbirləri" mövzusunda keçirilən təlim rayonun "Gilan" MMC-yə məxsus 400 baş iribuynuzlu heyvanın saxlanıldığı təsərrüfatda baş tutub. 15 fermerə iribuynuzlu heyvanların qan-parazitar xəstəliklərinin xüsusiyyətləri və iqtisadi zərəri barədə məlumat verilib. Qan-parazitar xəstəliyin gənələr vasitəsilə yayılmasını nəzərə alaraq, yay mövsümündə heyvanların ən azı həftədə bir dəfə akarasid vasitələrlə işlənməsinin vacibliyi önə çəkilib. Xəstəliyin müalicəsinin fermerlərin vəsaiti hesabına aparıldığı vurğulanıb. Heyvanlarda qan-parazitar xəstəlikləri müşahidə edildikdə mütləq baytar həkiminə müraciət olunması, akarasid dərmanların saxlanılması və işlədilməsi zamanı təlimata əməl edilməsinin zəruriliyi qeyd edilib. Eləcə də qan-parazitar xəstəliklərinin yeni müalicə metodları və preparatlar haqqında təlim iştirakçılarına ətraflı məlumatlar verilib.

Təlimlərdə heyvan sağlamlığı və heyvanlardan insanlara keçə bilən xüsusi təhlükəli xəstəliklər, onların yaranma səbəbləri, profilaktikası və qarşısının alınması yolları, eləcə də Aqrar Xidmətlər Agentliyinin bu sahədə həyata keçirdiyi tədbirlər barədə ətraflı bəhs olunub. Həmçinin baytarlıq preparatlarının istifadəsində şəffaflığın təmin edilməsi məqsədilə üzərində "Satıla bilməz" yazılmış biopreparatların və dərman maddələrinin heyvanlara təmənnasız tətbiq edilməsi, baytarlıq preparatları və vaksinlərin istifadəsi zamanı təhlükəsizlik qaydalarına əməl olunması, eləcə də sahibkarlar tərəfindən özbaşına - baytar həkiminin iştirakı olmadan heyvanlara dərman preparatlarının verilməsi və gənələrə qarşı çimizdirilmə aparılan zaman təlimatın gözlənilməməsi, heyvanların yem rasionuna düzgün əməl edilməməsi və digər mühüm amillərin nəticəsində yaranan fəsadlar barədə ətraflı müzakirələr aparılıb.

Təlimlərdə, həmçinin xəstəliklərə qarşı ölkədə tətbiq olunan vaksinlərin əhəmiyyətinə toxunulub. Arıların və heyvanların bəslənib saxlanması ilə məşğul olan fermerlərin qatıldığı təlimlərdə sözügedən xəstəliklərin qarşısının alınması və onların idarə olunması, təsərrüfatlarda rast gəlinən xəstəliklər, bu sahədə fermerlərin görə biləcəyi tədbirlər, baytarlıq-sanitariya qaydaları, xəstəlik törədicilərinə qarşı aparılan mübarizə yolları barədə məlumatlar verilib. Eləcə də baytarlıq tədbirləri aparılan zaman zəruri sayılan təhlükəsizlik qaydalarına əməl edilməsi, dezinfeksiya, dezinseksiya işlərinin görülməsi, heyvanların cins tərkibinin yaxşılaşdırılması, yemləmə, bəsləmə qaydaları, profilaktik tədbirlərin vaxtlı-vaxtında icrası, mövsümlə əlaqədar baş verən xəstəliklər və onlarla mübarizə, təsərrüfatlarda tez- tez rast gəlinən xəstəliklər barədə də izahat işləri aparılıb.

Sonda fermerləri maraqlandıran suallar cavablandırılıb.

**"Qəbələ"**

# Son üç ildə Qəbələdə salınan fındıq bağlarının ümumi sahəsi 2 min hektardan çoxdur

Dövlətimizin başçısının fındıqçılığın daha da inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıq və göstərişlərin icrasını təmin etmək məqsədilə son illər Qəbələ rayonunda da davamlı iş aparılır. Belə ki, son üç ildə rayon ərazisində 2 min 137 hektar sahədə yeni fındıq bağları salınaraq, mövcud fındıq bağlarının ümumi sahəsi 6 min 247 hektara çatdırılıb.



Hazırda rayonda 4 min 827 hektar bar verən fındıq bağları var. Bir neçə gündür ki, fındıq bağlarında builki mövsümün ilk məhsulunun yığımına başlanılıb. Cari ildə bağlardan 9 min tonadək fındıq yığılması gözlənilir.

Ötən il Qəbələnin fındıq bağlarından 9 min 200 ton məhsul tədarük olunub. Fındıq istehsalı əvvəlki illə müqayisədə 1800 ton artıb.

**"Qəbələ"**

# Kənd təsərrüfatının inkişafı hərtərəfli qayğı ilə əhatə olunub

Cari ilin yazında Qəbələ rayon əkinçiləri tərəfindən 408 hektar sahədə tərəvəz əkilib. Torpaq mülkiyyətçilərinin gərgin zəhməti sayəsində əkin sahələrində bol məhsul yetişib. Yığıma vaxtında başlayan fermerlər bu günədək yığım apardıqları 304.5 hektar tərəvəz sahəsindən 2993,4 ton məhsul yığıblar.

Hər hektarın məhsuldarlığı 98,3 sentner təşkil edir. Tədarük olunan məhsulun 134,4 tonu kələm, 120,0 tonu bibər, 1030,5 tonu xiyar, 715,0 tonu pomidor, 85,0 tonu badımcan, 594,0 tonu soğan, 84,6 tonu yaşıl lobya, 192,0 tonu sarımsaq, 23,1 tonu isə sair tərəvəzdir. Əkinçilər, həmçinin 14,8 ton bostan məhsulları da yığıblar. Rayonda tərəvəz yığımı davam edir.

# Rayonun elektrik enerjisi sistemində yenidənqurma işləri aparılır

Qəbələ Paylayıcı Şəbəkə Sahəsinin xidməti ərazisində 10 kV-luq elektrik verilişi hava xəttinin 9,8 km məsafəsində əsaslı və cari təmir işləri aparılmışdır. Belə ki, 10 kV-luq hava xəttinin Vəndam, Bum, Mıxlıqovaq, Qaradeyin və Zarağan elektrik verilişi hava xətlərində 50 ədəd fiziki köhnəlmiş ağac dayaq dəmir beton və metal dayaqlarla əvəz edilmiş, 8.300 metr məsafədə istismara yararsız, fiziki köhnəlmiş naqillər yenilənmişdir.



20,8 km məsafədə 0,4 kV-luq fiziki köhnəlmiş naqillər eyni güclü naqillərlə əvəz edilmiş, 197 ədəd ağac dayaq dəmir beton və metal dayaqlarla əvəz edilmişdir. Əhali və qeyri əhali sektorunda 119 ədəd yeni, 37 ədəd 3 fazalı sayğac quraşdırılmışdır. 2.090 ədəd qüsurlu sayğac yenisi ilə əvəzlənmişdir. Əhalinin fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin etmək istiqamətində işlər davam edir.

**"Qəbələ"**

# Heyvandarlıq sahəsinin inkişafı diqqət mərkəzində saxlanılır

Rayonda ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində görülən tədbirlər çərçivəsində heyvandarlıq məhsulları istehsalının artırılmasında, mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasında və damazlıq keyfiyyətlərinin yüksəldilməsində mühüm rol oynayan süni mayalama tədbirlərinin həyata keçirilməsi genişləndirilir. Bu məqsədlə rayonda 7 nəfər süni mayalama mütəxəssisi fəaliyyət göstərir. Keçən 7 ay ərzində süni mayalama mütəxəssisləri tərəfindən 5042 baş inək və düyələrdə süni mayalama aparılmış və süni mayalandırılmışmış heyvanlardan 2523 baş yüksək genetik potensiala malik buzovlar alınmışdır. 2016-cı ilin oktyabr ayından etibarən süni mayalama yolu ilə alınmış hər bir baş buzova dövlət büdcəsinin vəsaiti hesabına subsidiya



verilir. 2019-cu ilin 7 ayında 1353 nəfər heyvan sahibinə 1618 baş süni mayalanmadan alınmış buzovlara görə 161800 manat subsidiya verilmişdir. Bu iş mütəmadi olaraq hər ay davam etdirilir. Bütün bunların nəticəsidir ki, heyvan sahibləri heyvanların mayalandırılmasında mütərəqqi üsul olan süni mayalamaya üstünlük verirlər.

**"Qəbələ"**

# Ölkəmizdə

## Məhsul istehsalçılarına daha 63,2 milyon manat subsidiya ödəniləcək

Cari ildə becərmədə istifadə edilən yanacaq və motor yağlarına, buğda və çəltik əkininə, təhvil verilən yaş baramaya görə fermerlərə 86 milyon manatdan çox subsidiya veriləcək.

Kənd təsərrüfatı məhsullarının istehsalçılarına buğda və çəltik əkininə və istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımların, habelə hüquqi və fiziki şəxslər tərəfindən istehsalçılara satılan mineral gübrələrin, biohumusun və pestisidlərin qiymətinə tətbiq edilən güzəştin məbləğinin ödənilməsinin təmin edilməsi üzrə Respublika Komissiyasının növbəti iclası keçirilib.

Komissiyanın iclasında kənd təsərrüfatı məhsulları istehsalçılarına hər hektar əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına 50, buğda və çəltik əkinlərinə görə əlavə 40, barama istehsalçılarına emal müəssisələrinə təhvil verdikləri yaş baramanın (əyrilən və karapaçax barama istisna olmaqla) hər kiloqramına görə 5 manat məbləğində subsidiyanın verilməsi, habelə hüquqi və fiziki şəxslər tərəfindən istehsalçılara satılan mineral gübrələrin, biohumusun və pestisidlərin satış qiymətinə tətbiq edilən güzəştin ödənilməsi ilə bağlı Dövlət Aqrar İnkişaf mərkəzlərinin təqdim etdiyi sənədlərə baxılıb.

Ümumilikdə ilin əvvəlindən Respublika Komissiyası 59 rayon (şəhər) üzrə 383665 istehsalçıya 1214259,08 hektar əkin sahəsinin və çoxillik əkmələrin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik əkininə görə 83 milyon 240,7 min, 36 rayon (şəhər) üzrə 5543 barama istehsalçısına barama emalı və ipək istehsalı müəssisələrinə təhvil verdikləri 624427,65 kiloqram yaş baramaya görə dövlət büdcəsinin vəsaiti hesabına 3 milyon 122,1 min manat məbləğində subsidiya ödənilməsi barədə qərar qəbul etmişdir.